

## MƏHƏMMƏD ƏLİ

***Məhəmməd Əli Namət oğlu Hacıyev Qəbələ rayonunun Qəmərvan kəndində anadan olub. İxtisasca mühəndisdir, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib. Ali təhsilini başa vurduqdan sonra Bakı şəhərində yaşamağa qərar verib. Hazırda paytaxtda yaşayır və məsul bir sahədə işləyir. Çox gənc yaşlarından yaradıcılıqla məşğul olan Məhəmməd Əli "Dağlardan ayrı", "Sevincim acıdır, kədərim şirin", "Özümü axtarıram", "Söz sənindir", "Çörəyimin duzu yoxdur", "Gedirəm üzü gün doğana", "Duyğularımı səpdim dənizə", "Etiraf" və digər şeir kitablarının müəllifidir. Azərbaycan Dövlət Televiziyasında və radiosunda, eləcə də dövrü mətbuatda müntəzəm olaraq şeirləri və aktual mövzuları əhatə edən publisistik yazıları ilə çıxışlar edir. Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və "Dirili Qurbani" ədəbi məclisinin üzvü olan şair "Qızıl Qələm", "Məmməd Araz", "Həsənbəy Zərdabi", "Araz", "Yurd və vətən fədaisi" və sair ədəbi mükafat və diplomlara layiq görülüb. Şair Məhəmməd Əlinin bir çox şeirləri vardır ki, indiyə kimi heç bir şair həmin mövzulara toxunmamışdır. Xüsusi duyumu olan şairin öz epiqrafı vardır. O, deyir:***
***-Şeiri yazmadım ad-san üçün,***
***Yazdım duyan insan üçün.***
***Martın biri şairin anadan olduğu gündür. Onu doğum günü münasibətlə təbrik edir, mənalı ömür yolu və bol-bol yaradıcılıq uğurları arzulayırıq.***

# *MƏN SİRLİ BİR KİTABAM*

Mən sirli bir kitabam,
açın, oxuyun məni.
Hələ sıranızdayam,
yaxından duyn məni.

Məni duymaq sizlərə
sonra çətin olacaq.
Varlığım, ya yoxluğum
sirr olaraq qalacaq.

Yerlə Göy arasında
köçüb dolaşacağam.
Nakam qara baxtımla
orda barışacağam.

Uca zirvələr aşan
külək, yel olacağam.
Dərib qoxladığınız
çiçək, gül olacağam.

Qoynunda gəzdiyiniz
bağça, bağ olacağam.
Suyundan içdiyiniz
bir bulaq olacağam.

Yağış səpən, qar səpən
lay bulud olacağam.
Ocağınızda yanan
alov, od olacağam.

Yurd, məskən saldığınız
oba, el olacağam.
Yeriyib keçdiyiniz
körpü, yol olacağam.

Havatək qəlbinizə
süzülüb dolacağam.
Sanmayın, köçüb getdim...
sizinlə qalacağam...

Mən sirli bir kitabam;
açın, oxuyun məni.
Hələ sıranızdayam,
yaxından duyun məni.

***14.03.2018***

# ...YAĞIŞDAN SONRA

Yollar, yamaclar yuyunub,
sığal çəkib daranıb,
xoşhallanıbdır.
Təpələr dağa qısılıb
mürgü vurur,
xumarlanıbdır.

Havadan ətir qoxusu gəlir,
təbiət ətirlənibdir.
Yağışdan qorunan serçələr
yarpaqlarla çətirlənibdir.

Qırıb həsrətin belini
Yer Göylə üfüqdə görüşüb.
Vüsalın təşnəsindən
göyün yanağı pörtüb,
rəngdən-rəngə düşüb.

Zirvələr elçi düşüb dağlara
gəlib oğlan evinin qonağı.
Dağlar utandığından
çəkib başına duman - yaylığı.

Qayalar necə var görünür
atıb çiyindən bulud - çuxasını.
Dağ çayı haray çəkib
səsləyir elləri
görmək üçün bu mənzərəni,
cıraraq yaxasını...

***31.03.2018***

# BAHAR GƏLDİ

***(mənsur şeir)***

Bahar gəldi.
Tumurcuqlar cırıb köynəyini
yaşıl don biçir ağaclara.
Qönçələr açıb yaxasını
ətir yayır bağ, baxçalara.

Bahar gəldi.
Töküb üzünə qulac-qulac saçlarını
söyüdlər yallı gedir.
Boynubükük bənövşə kol dibində durub
yoldan keçənlərə naz edir.

Bahar gəldi.
Sərir hər yana naxışlı çuxasını
çöllər, çəmənlər açıb
tökür onun üstünə boxçasını.

Bahar gəldi.
Bulaqlar zambaqtək ağ çiçək açıb
oxuyur sevgi nəğməsini.
Qızları, gəlinləri haraylayır
ətrafa yayaraq səsini.

Bahar gəldi.
Dağlar dağ kəlitək
toqquşa-toqquşa çayaşağı gedir.
Sular sellənərək rəqs edir.

Bahar gəldi.
Otlara, kollara, yarpaqlara
mirvari düzür sis-duman.
Löngər vurub dalğalanır
meh əsdikcə meşə, orman.

Bahar gəldi.
Buludlar nərə çəkib guruldadı,
"güllələdi" təbiəti,
açaraq atəş.
İlıq nəfəsi ilə
məlhəm qoyur təbiətin yaralarına,
bulud arxasından boylanan günəş.

Bahar gəldi...
Bahar gəldi...

***21.03.2018***